# Biz birlikdə güclüyük

Hər bir məsələnin həllində başlanğıc mərhələ önəmli rol oynayır. Dünyanı bürüyən koronavirus pandemiyasına qarşı mübarizə tədbirləri hər bir ölkənin malik olduğu imkanların təqdimatında, eyni zamanda, vəziyyətdən çıxmaq




üçün düzgün istiqamətin seçilməsində əhəmiyyətli rol oynayır. Azərbaycan koronavirusa qarşı mübarizədə də kompleks tədbirlərin həyata keçirilməsinə xüsusi önəm verdiyini bir daha nümayiş etdirir. Azərbaycanın ilk gündən atdığı addımların beynəlxalq aləmdə təqdir olunması, Ümumdünya Səhiyyə Təşkilatının rəsmilərinin görülən işləri yüksək dəyərləndirmələri də səbəbsiz deyil. Qabaqlayıcı tədbirlərin görülməsi nəticəsində ölkəmizdə ilkin mərhələdə xəstəliyin geniş yayılması uğurlu addımlar sırasındadır. Mübarizəyə başlandığı gündən əsas çağırış məsuliyyətli olmaq, sosial məsafəni gözləmək, tibbi maskalardan istifadə etmək olub və həmin məsələlər bu gün də öz aktuallığını qoruyur. Ehtiyac duyulmadığı təqdirdə evdən çıxmamaq əsas tələblər sırasındadır.

Prezident İlham Əliyevin, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın bütün müraciətlərində məsuliyyətli olmağa, evdə qalmağa çağırışlar əsas yer tutur. COVID-19-a qarşı vaksinin nə zaman hazırlanacağını, xəstəliyin tez və səmərəli müalicə üsulunun nə vaxt tapılacağını bu gün dəqiqliklə heç kim deyə bilmir. Ona görə də heç bir halda sayıqlığımızı itirməməli, ümidverici rəqəmlər fonunda səhlənkarlığa yol verməməliyik. Belə əziyyətlə nail olduğumuz müsbət nəticələri sıfıra endirərək itirmək yolverilməzdir. Laqeydlik hər birimizə, yaxınlarımıza, ölkəmizə real təhlükə törədəcək. Hamımız yeni qaydalarla yaşamağı öyrənməliyik. Əslində, bu qaydalar elə də çətin deyil - məsafə saxlamaq, qoruyucu vasitələrdən istifadə etmək, tez-tez əlləri yumaq. Göründüyü kimi, COVID-19-la mü-



barizədə vətəndaş məsuliyyəti əsasdır.Tətbiq olunan qaydalar təkcə dövlət orqanlarının deyil, ümumilikdə, bütün cəmiyyətin, fərdi qaydada hər bir vətəndaşın üzərinə müvafiq məsuliyyət qoyur. Hər zaman bu çağırış gündəmdədir ki, maarifləndirmə işinin yüksək səviyyədə həyata keçirilməsi prioritetdir. Bu baxımdan hər bir vətəndaş üzərinə düşən məsuliyyəti dərk etməklə artıq pandemiyanın birinci mərhələsini az itki ilə başa vuran ölkəmizin yeni dalğaları yaşamamasına, xəstəliyin coğrafiyasının genişlənməməsinə öz dəstəyini göstərə bilər. Gündən-günə gözəlləşən, müasirləşən şəhər, rayon və qəsəbələrimizin hər addımlığında rast gəldiyimiz reklam lövhələrində, avtobus və metrolarda səsləndirilən çağırışlar hər birimizdə məsuliyyət hissi yaratmaqla yanaşı, sabahımıza böyük inamla addımlamağımızı tələb edir. Özünütəcrid koronavirusla mübarizədə əsas amil olduğu halda, özünəqapanma, depressiyaya düşmə uğursuzluğa yol açar. Bunun üçün məsuliyyətli olaq, qaydalara riayət edək, özümüzə qapanmayaq, pozitiv olaq, evdə qalaq ki, koronavirusla mübarizənin qəliblərinə çevrilək. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük inam və qətiyyətlə vurğuladığı kimi, "COVID-19 adlı qorxulu hekayənin geridə qalacağı gün gələcək. Həmin gün uzaqda deyil".

Gözəgörünməz düşmənlə mübarizə doğma Qəbələmizdə də uğurla davam etdirilir. Bu günlərdə Qəbələ Rayon İcra Hakimiyyətinin Başçısı cənab Səbuhi Abdullayev koronavirus infeksiyası (COVİD-19)-la mübarizə tədbirlərinə həsr olunmuş video-konfrans formatında müşavirə keçirmişdir. Müşavirədə Qəbələ rayon polis şöbəsinin rəisi Nadir Məmmədov, rayon icra hakimiyyətinin məsul vəzifəli şəxsləri, qəsəbə və kənd inzibati ərazi nümayəndələri iştirak etmişlər. Onlayn-müşavirədə koronavirus infeksiyasının rayon ərazisində yayılmasının qarşısının alınması istiqamətində görülən işlər və qarşıda duran vəzifələr müzakirə olunmuşdur.

Həmçinin, rayonda fəaliyyət göstərən mobil qruplar ölkə ərazisində tətbiq olunmuş xüsusi karantin rejimi ilə əlaqədar rayonun ictimai iaşə, ticarət və digər obyektlərində müəyyən edilmiş qaydalara əməl olunması vəziyyətini öyrənmək və lazımi tədbirlər görmək üçün mütəmadi olaraq reydlər aparırlar. Reydlər zamanı tibbi maskadan istifadənin və sosial məsafənin saxlanılmasının vacibliyi bir daha vətəndaşların diqqətinə çatdırılır. Mobil qruplar tərəfindən reydlər və maarifləndirmə tədbirləri ardıcıl olaraq davam etdirilir.

# Postpandemìya

Bildiyimiz kimi, pandemiya ilə mübarizədə çoxsaylı tədbirlər həyata keçirilsə də COVİD-19-un yayılmasının qarşısını almaq mümkün deyil.

Ümumdünya səhiyyə təşkilatı və dünya ölkələri yaxın aylarda pandemiyanın ikinci dalğası ehtimalını nəzərdən keçirirlər. Bəzi dövlətlərdə bu epidemiyanın real ikinci dalğa təhlükəsi rəsmən elan edilib.

Deməli, pandemiya hələ bitməyib, vaksinin nə zaman hazırlanıb istifadəyə buraxılacağı haqqında da proqnoz vermək inandırıcı sayılmaz. Buna görə də hər bir vətəndaş yüksək həssaslıq və məsuliyyət nümayiş etdirərək koronavirusla mübarizədə əldə edilən müsbət dinamikanı qorumağa çalışmalıdır.

Heç kim məhdudiyyətlərlə üzləşmək istəmir. Vətəndaşlar çox sürətlə ölkəmizin öz normal həyatına qayıtmasını–yeni dərs ilinin, hələ də fəaliyyətinə icazə verilməyən bir çox iş sahələrinin açılmasını, iqtisadiyyatımızın pandemiyanın təsirindən minumum itkilərlə çıxmasını, səhiyyə sahəsində müsbət nəticələrin olmasını arzulayırlar.

**Əsas məqsəd-insanların sağlamlığıdır**

İlham Əliyev demişdir: bizim bu xəstəliklə bağlı əsas məqsədimiz insanların sağlamlığıdır. Bununla eyni əhəmiyyət daşıyan insanların sosial vəziyyətidir və biz bunu təmin edirik. Ondan sonra əhəmiyyət baxımından bizim iqtisadi vəziyyətimiz, iqtisadi inkişafımız, iqtisadiyyatın dayanıqlığı və biznes dairələrinə göstərilən dəstək, pandemiya dövrünə hazırlıq gəlir. Halbuki heç kim deyə bilməz ki, postpandemiya dövrü nə vaxt başlayacaq. Ümumiyyətlə, hesab edirəm ki, indi proqnoz verməyə heç kim cəsarət etmir. Ancaq hər halda biz buna da hazır olmalıyıq. Yeni fəaliyyətə başlayan biznes sahələri dövlətin dəstəyini nəzərə alaraq gərək artıq öz gələcək planlarını elə qursunlar ki, ölkənin ümumi iqtisadiyyatında canlanma daha da tez baş versin.

**Pandemiya həyat tərzini dəyişdirir**

Yaşanılan tarix boyu bəşəriyyət müharibələr, epidemiyalar, fəlakətlər görüb və sonda bunları atladıb. Hər bir epidemiya başlayanda insanlar kütləvi qırğınlar verib, bir müddət sonra isə həmin epidemiyanın müalicəsi asanlaşmışdır.

XX əsrin əvvəlində "İspan qripi" yayıldı Bu epidemiya I Dünya Müharibəsini yarımçıq saxladı, tərəflər sülh müqaviləsi bağladılar. "İspan qripi"ndən sonra insanların dövlət, din, siyasi, iqtisadi baxışları dəyişdi. Dünyada bir sıra fərqli hüquq sistemləri olsa da, insan hüquqlarına kooperativ hüquqa oxşar baxışlar yarandı.

İnsanın həyatda qalma və yaşama instinkti, həvəsi ta ilk yaranışdan mövcuddur. Elə buna görə də, insan sonradan qazanılmış azadlıqlarını yaşamaq həvəsinə qurban verir.

Pandemiya dövründə bəzi ölkələrdə fövqəladə vəziyyət elan olundu və bu davam edir. Karantin, xüsusi karantin rejimi tətbiq edildi, xeyli hüquqlar məhdudlaşdırıldı. Sərbəst toplaşma, yaşayış yeri seçmə, həmçinin, iş, əmək,təhsil, hərəkət, daşıma və s. kimi konstitusion hüquqların məhdudlaşdırılması adamlarda etiraz yaratmadı. Çünki bu epidemiya ilə bağlı vətəndaşların həyatı və təhlükəsizliyinin təmin edilməsinə görə tətbiq olunan məhdudiyyət idi. Bu yaşananlar isə insanların dünyaya baxışını dəyişməkdədir.

Pandemiya dövründə otellər öz sakit günlərini yaşayırlar. Postpandemiya dövründə daxili turizmi gücləndirməli, qiymətlərə yenidən baxılmalıdır.

**Səhiyyə**

Bütün inkişaf etmiş ölkələrdə COVİD-19 ilə bağlı verilən siyasi qərarlar əsasən, ölkənin tibb elminin apardığı tədqiqatlara əsalanaraq verilmişdir. Çünki virusun yayılma tezliyi və bir ölkədə yaşayan risk qrupuna daxil olan xəstələrin sayı digər ölkələrdən fərqlənir ki, bu da bu virusla mübarizə strategiyasını dəyişir. Səhiyyə sahəsində lazımi tibbi kadrların və elm adamlarının məqsədyönlü şəkildə hazırlanması postpandemiya dövründə səhiyyənin qarşısında duran vəzifələrdən olmalıdır. Hələ pandemiyadan öncə yaradılmış Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında icbari tibbi sığorta üzrə Dövlət Agentliyinin yaradılması zamanında atılmış çox doğru addımdır.

Pandemiya dövründə ölkəmizdə 11 modul xəstəxana açılmışdır ki, bu xəstəxanalar da xəstələrin müalicə olunması üçün hazır vəziyyətdədir. Qeyd edək ki, belə xəstəxanaların sayı 16-ya çatdırılacaqdır.

Səhiyyə sistemində tutarlı planlamaları başqa inkişaf etmiş ölkələrdə də olduğu kimi düzgün kadr seçimi ilə başlamaq lazımdır.

**Postpandemiya dövründə insan hüquqları**

"İctimai müqavilə" nəzəriyyəsinə görə rifaha və inkişafa nail olmaq üçün insan öz hüquqlarının bir qismini dövlətin ixtiyarına verir.

İnanır ki, dövlət onun hüquqlarının pozulmasının qarşısını alacaq, təkbaşına nail ola bilməyəcəyi sosial rifahını təmin edəcək.

Koronovirus pandemiyası bir çox gerçəkləri, mövcud münasibətlərdəki qüsurları ortaya çıxardı. Həmçinin postpandemiya dövründə yeni münasibətlər sisteminin yaranması üçün düşünməyə əsas verdi.

**Yeni iqtisadi artım modeli**

Postpandemiya dövründə iqtisadi artımın yeni modeli tətbiq ediləcək. Dövlətin iqtisadi siyasətində tikinti, dağ-mədən sənayesi, neft-kimya sənayesi, rəqəmsal iqtisadiyyat, nəqliyyat, ticarət, loqistika (yükdaşıma) telekommunikasiya, daxili turizm, kənd təsərrüfatı, emal sənayesi əsas sayılacaq. Dövlət adından şirkətlərin vahid mərkəzdən idarə olunması, onların fəaliyyətinin, o cümlədən investisiya proqramlarının şəffaflığının və iqtisadi səmərəsinin yüksəldilməsi, rəqabət qabiliyyətinin təmin olunması üçün Dövlət İnvestisiya Holdinqi yaradılacaq. Yeni özəlləşdirmə proqramı hazırlanacaq.

Bütövlükdə, Tədbirlər Planının qarşısındakı əsas vəzifə əhalini və sahibkarları pandemiyanın mənfi təsirindən qorumaq, iqtisadiyyatın funksionallığını saxlamaq və postpandemiya dövründə yeni iqtisadi artım modelini tətbiq etməkdir.

**Aqrar sektor**

Postpandemiya dövründə kənd təsərrüfatı sahəsində çalışan fermer və kənd əhalisinə müəyyən qədər dəstəyin verilməsi məqsədilə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən layihə hazırlanır. Aqrar sahə ölkəyə stabil valyuta gətirə biləcək sahədir. Daxili istehsal sayəsində ərzaq təhlükəsizliyi təmin edilməlidir. Əlbəttə, idxal edəcəyimiz məhsullar çoxdur, ancaq yaşam üçün lazım olan məhsulların əldə olunması daxili istehsal ilə mümkündür.

Həmçinin xarici və daxili sahibkarların kənd təsərrüfatı sahəsinə investisiya yatırması da bu dövr üçün çox vacibdir.

**Beynəlxalq münasibətlər**

Pandemiya dövründə bir çox beynəlxalq toplantılar video-konfrans kimi keçirilir. Əslində gələcəkdə xərclərin azaldılması, operativliyin təmin edilməsi, vaxta qənaət üçün bu üsulun geniş tətbiq edilməsinin mümkünlüyü sınaqdan keçirildi.

Pandemiya bəzi hallarda qloballaşmanı sürətləndirsə də, dünya ölkələri arasında "Problemi öz sərhədi daxilində həll etməyin vacibliyi və lazımlılığı" inamı artırdı. Hər bir ölkə ayrı-ayrılıqda mübarizə taktikası qurdu. Pandemiya dövründə bəzi münasibətlərin, ittifaq olmuş dövlətlərin birgə platformalarının, fəaliyyətinin kağız üzərində olduğu üzə çıxdı.

**Təhsil**

Pandemiya zamanı onlayn təhsil aktuallıq qazandı və qısa müddətdə yalnız onlayn fəaliyyət göstərən məktəblərin, kolleclərin və universitetlərin özlərinin onlayn təhsil sistemlərini qurmaları bir sıra çətinliklər yaratdı. Bu baxımdan imtahanların ləğv olunması və ya alternativ üsullarla (onlayn kursları keçərək oradakı imtahanları verməklə) əvəz olunması həyata keçirildi. Ehtimal olunur ki, pandemiya dövründə də onlayn təhsil sistemi aktuallığını itirməyəcək. Bunu nəzərə alaraq artıq bütün təhsil ocaqları özlərinin müvafiq sistemlərini quraraq rəqəmsallaşmaya keçidi sürətləndirməyə başlayıb. Ekspertlər hesab edilər ki, təhsilin kütləvi formada rəqəmsallaşması dövrü başladı. Bu geriyə dönüşü olmayan bir yoldur...

**Postpandemiya dövründə Azərbaycan**

Pandemiya dövründə Azərbaycan da effektli mübarizə tədbirləri ilə operativ idarəetmənin mövcudluğunu göstərdi. Eyni zamanda əmək müqavilələrinin tənzimlənməsi, bazar, bank və idarə münasibətlərindəki hüquqi problemləri ortaya çıxardı.

Dövlətin yardım və təşviqetməsi xüsusilə özəl sektoru hüquqi bazar münasibətlərinə keçməyə sövq edəcək.

Əmək müqaviləsi olmayanların xüsusi karantin dövründə qarşılaşdıqları problemlər gələcək əmək münasibətlərində daha diqqətli və tələbkar olmağa sövq edəcək.

Pandemiyadan sonrakı dövrün qəlibi bu prosesdən daha az itki ilə, daha təmkinli idarəetmə ilə çıxanlar olacaq.

**Afət SÜLEYMANOVA,**
**Qəbələ şəhər sakini.**